

*Tural Cəfərli*

## Unutmaq

Yalnızlığın imtahanı
Niyə çox çəkdi belə?
Gah yağışda, gah qardayam.
Yox olmadım, itmədim,
Varam hələ, burdayam...

Həyatımın ən xoş günü,
ən təsirli gecəsidi.
Gözlərindən asılıb,
Əllərindən tutmuşam,
İndi hara getsək inan,
Dünya bizlə gələsidi...

Ərköyün uşaq kimi,
Bir az dəcəl, bir az kövrək.
Əziz tutub xətrimi,
Bəslədin ipək kimi,
İndi çətin olubdu,
Bu dünyada sənsiz olmaq,
yaşamaq, barışmaq, unutmaq...

## Yalnızlıq şeirləri

Yalnızlığın şeirləri,
Necə baxır görəsən,
Həsrət pəncərəsindən
Bu şəhərə?..
Görən olurmu onu,
Duyan olurmu onu,
Bir yağışlı gecədə,
Bir qaranlıq küçədə?..
Tutan olurmu onun,
Soyuq əllərindən,
Qorxma, yaxşı olacaq,
Tapacaqdı səni atan,
Deyən olurmu bir insan,
Bir canlı?..
Ya da uşaq kimi sığal çəkib,
Bir xəyalın arxasınca,
Arzun nədir bu həyatda,
Soruşanı olurmu,
Bu fani kainatda?..

## Təqvim

Sənsiz keçən günlərimi
Seçib kənara qoydum.
Təqvimə nəzər etdim,
Sən demə,
Günlərimin rəngləri
Qara rənglə dolubdu...
İndi baxıb görürəm,
Ömür yarı olubdu...

## Sentyabr ayının şeiri

Bu şəhərin səhəri də,
Qadın kimidi...
Tez soyuyur diqqətsizlikdən...
Mənəvi böhran keçirir,
Dayancaqlar, metro stansiyaları...
Adamların gözləri
Tikan bitirir baxışlarında...
Bu külək də əl eyləyir,
Şəhərin qərib sakinlərinə...
Adi bir sentyabr günüdü,
Məvacibə az qalıb.
Ümidlərin dikəlib,
Erkən açan güllər kimi...
Günəşin istisinə,
Nahaq yerə meyil salıb...

## Unudulmuş söz

Dəqiq yadımda deyil,
Amma nəsə sözüm vardı sənə...
Geri dön idimi, yox onu deməzdim,
Qürurum yol verməzdi buna...
Sənsiz yaşamaq olmur demək istərdim,
Nəcə deyim, yalan olar yaşayıram axı...
Bəs nə idi demək istədiyim söz,
Bəlkə də sözüm də yoxdu daha,
Deməyə, təsəlli verirəm,
Özüm-özümə...

## Bu şəhər

Bir şəhərin sakini,
Bir havasını udan adamlarıq.
Lakin sənə toxunmaq,
Qadağasını qoyub mənə tale.
O zaman ya bu həsrətlə ölməliyəm,
Ya da bu şəhərdən köçməliyəm.

## Sənə yazmadığım şeir

Sənə şeir yazmaq istədim,
Bir payız axşamında.
Xəzan düşdü yazılara,
Yağış yağdı bayırda...
Anladım ki, təbiətin,
Kövrəkliyi bir şeirdi.
Sevənlərin yalnızlığı,
Təkliyi bir şeirdi.

Səssiz keçən bir gecənin,
Ümid dolu səmasında.
Parlayan ulduzların
Rəqsi özü şeirdi.

## Bilmişəm

Uzaqdasan, amma yox da deyilsən,
Hiss edirəm varlığını xəyalımda.
Gülürsən, təbəssümün göy üzündə
Rəqs edən buludlardı...
Bilirsən, sənin uzaqlığında,
Böyük həqiqət var ki o da
Ayrılığın gücü haqqındadı.
Ayrılıq güc verir sevgiyə,
Zamanı şeytan kimi daşlayır,
Mən indi bilmişəm,
Bilmişəm ki,
Sevgi atılandan sonra başlayır.

## Hardasan...

Hardasan,
Hansı bəxtəvərin yanındasan...
Necə keçir günün?
Kədərliisənmi, sevinclimi?
Hansı filmə baxırsan,
Nə düşünürsən gecələr aya baxıb?
Bir də mənə görəsən,
Düşünüb, xatırlayıb,
Bu suallara verəsən...
Bilirsən deyəcək o qədər sözüm var sənə,
Bir roman kimi, bir film kimi...